**Pandemiyaya qarşı mübarizə məqsədilə ölkəmizdə martın əvvəllərindən başlayan karantin rejimi mərhələ ilə yumşaldıldı. Aprel ayının sonundakı yumşaldılmadan sonra insanların məsuliyyətsizliyi, yaşayış yerlərini tərk edərək paytaxtdan rayonlara çıxmaları və qaydalara əməl edilməməsi yenidən sərt karantin rejimini zəruri etdi. Bundan sonra yoluxanların sayının artdığını görən insanlar artıq sosial məsafə saxlanması, maska taxılması və gigiyenik qaydalara əməl edilməsi kimi tələblərə ciddi yanaşdılar. Marketlərdə, avtobuslarda və insanların toplaşa biləcəkləri bəzi yerlərdə maskadan istifadəyə üstünlük verilməsi nəticəsində yoluxmalar azalmağa başladı. Bundan sonra yenidən sərt karantin rejimi yumşaldıldı.**

# Müsbət dinamikanı qoruyub saxlamalıyıq



Həmin dövrə qədər dövlət və hökumət tərəfindən görülən qabaqlayıcı tədbirlər, xəstələrin müalicəsi ilə bağlı atılan addımlar nəticəsiz qala bilməzdi. Yoluxmaları müəyyənləşdirmək üçün testlər alınması, laboratoriyaların sayının artırılması, xəstəxanaların koronavirusla xəstələrin müalicəsi məqsədilə yenidən təşkil edilməsi, modul tipli xəstəxanaların qurulması dövlət başçısının pandemiya ilə mübarizəyə necə böyük diqqət və önəm verdiyinin sübutu və əyani göstəricisidir. Prezident çıxışlarında dəfələrlə bildirib ki, birinci məsələ insanların sağlamlığıdır. Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan, avqustun 31-də açılışı olan modul tipli növbəti hospitalının açılışında dövlət başçısı demişdir: “Mən bunu bəri başdan -- pandemiyanın ilk günlərindən demişdim ki, insanların sağlamlığı bizim üçün prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik. ... Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz vaxtında bu addımı atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir”.

Pandemiya dövründə ölkədə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynadı. Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksi quraşdırılıb. Mayın 7-də Bakıda 1 saylı Kliniki Tibbi Mərkəzdə ilk, iyunun 9-da 28 saylı Bilgəh qəsəbəsi Birləşmiş Şəhər Xəstəxanasının, 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının və Abşeron rayonunun Saray qəsəbə xəstəxanasının, iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusları, iyulun 6-da Xətai rayonunda modul tipli hospital istifadəyə verilib. Növbəti modul tipli infeksion xəstəliklər korpusu Qobustan rayonunda, daha sonra Şəkidə, Qəbələdə istifadəyə verilib.

Pandemiyaya qarşı mübarizədə görülən bu işlər nəticəsində yoluxmaların sayı ciddi surətdə azaldı. Məhz buna görə də karantin rejimi yumşaldılır və bəzi məhdudiyyətlər mərhələlərlə aradan qaldırılır. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, 2020-ci il avqustun 5-dən etibarən sərtləşdirilmiş xüsusi karantin zonasına daxil olan şəhər və rayonlarda insanların yaşayış yerini və olduğu yeri SMS icazə, xidməti vəsiqə, icaze.e-gov.az portalı vasitəsi ilə tərk etmək sistemi ləğv olundu və bunula insanlara sərbəst evdən çıxmağa icazə verildi. Həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində ölkə üzrə çimərliklərin istifadəsinə qadağa götürüldü.

Ötən həftə operativ qərargahın yaydığı məlumat vətəndaşlarımızı xeyli sevindirdi. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və vətəndaşların məsuliyyətli davranışı sayəsində ölkəmizdə koronavirus infeksiyasının yayılması məhdudlaşdırılmış, yoluxma hallarının sayında azalmaya nail olunmuşdur. Buna görə də sərt karantin rejiminin yenə bəzi məhdudiyyətləri aradan qaldırıldı və yumşalmalar təmin edildi. Operativ qərargahdan ötən həftə verilən məlumata görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 8-dən bir sıra sahələr üzrə əlavə yumşalma tədbirləri həyata keçirildi. Belə ki, indiyədək ictimai iaşə müəssisələrində müştəriyə ancaq açıq havada və saat 22.00-a qədər xidmət göstərilirdisə, müvafiq karantin qaydalarına riayət olunmaqla və “Koronavirus (COVID –19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə” qərarda nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla, saat 00:00-a qədər ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verildi. Şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırıldı. Həmçinin təhsil müəssisələrinin, 7 aydan bəri işi dayandırılan bağçaların fəaliyyətinə sentyabrın 15-dən icazə verildi.

Sentyabrın 9-da qəbul edilmiş qərar isə bağçayaşlı uşaqları olan valideynləri mütəəssir etdi. Çünki, “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli qərarında dəyişiklik edildi. Dəyişikliyə əsasən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində, 2020-ci il oktyabrın 1-dən, ölkənin digər şəhər və rayonlarında fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrində isə 2020-ci il sentyabrın 15-dən fəaliyyətə icazə verilib. Bu barədə məlumat Nazirlər Kabinetinin rəsmi saytına yerləşdirilib. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bağçaların bir qədər gec, 1 oktyabr tarixindən açılmasının səbəbi əhalinin sayı və sıxlığının daha yüksək olması ilə əlaqələndirilir. Bu, həm də bağçalarda müvafiq hazırlıq işlərinin görülməsi, dezinfeksiya işlərinin aparılması üçün daha uzun müddətin tələb olunması ilə bağlıdır.

Eyni zamanda, bu müddətdə bağça tərbiyəçiləri və texniki işçilər bağçaların yeni qaydalarla açılması və idarə edilməsinə dair təlimatlandırılacaq, daha çox məşğələlərə üstünlük veriləcək ki, uşaqların bir-biri ilə çox yaxın təmasına şərait yaranmasın. Eyni zamanda, qruplarda oyun, yataq və digər otaqlar xüsusi qaydalarla təşkil olunacaq. Qərarda o da göstərilir ki, uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi vacib şərtdir.

Bütün bu tədbirlər, qadağalar, məhdudiyyətlər insanların virusa yoluxmasının qarşısını almaq üçündür. Yeni qərara əsasən bir sıra məhdudiyyətlərin qaldırılması hələ karantin rejiminin bitməsi demək deyil və qəbul edilən bu qərar noyabr ayına qədər qüvvədədir. Hazırda əldə edilən müsbət dinamika qorunub saxlanılmalıdır. Noyabra qədər yoluxmaların sayı kəskin artsa, təbii ki, yenidən sərt karantin rejiminin tətbiq edilməsi qaçılmaz olacaq. Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalın açılışında da Prezident bu barədə danışarkən demişdir: “Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, – mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti doğrudan da görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, – hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir”.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***